


# "Əkinçi"dən başlanan əsryarımlıq şərəfli yol

## *Mətbuat cəmiyyətin aynası, gələcəyin bələdçisidir*

**"Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb". Bu fikirləri Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə söyləyib.**

Dövlət başçısı bildirib ki, Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir və ölkəmizə qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib.

**(davamı 15-ci səhifədə)**

# "Əkinçi"dən başlanan əsryarımlıq şərəfli yol

(əvvəli 1-ci səhifədə)

Mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib. Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam.

Azərbaycan milli mətbuatının 150 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ölkəmizdə jurnalistikaya verilən yüksək dəyərin göstəricisidir. Bu gün jurnalistlərin sosial rifahı və peşəkar inkişafı da dövlətin diqqət mərkəzindədir. Onlar güzəştli ipoteka kreditlərindən, vergi azadolmalarından, media subyektlərinə dəstək mexanizmlərindən yararlanır, fəxri adlarla, mükafatlarla təltif olunurlar, mətbuat sahəsində atılan hər addım medianın inkişafına, informasiya təhlükəsizliyinə və milli maraqların qorunmasına xidmət edir. Milli mətbuatın yaranmasının 150 illiyi müxtəlif silsilə tədbirlərlə qeyd edilir. Bu coşqu və sevincin bir səbəbi milli mətbuatın 150 yaşının tamam olmasıdırsa, digər səbəbi belə əlamətdar hadisənin öz ərazi bütövlüyünü və suveren hüquqlarını bərpa etmiş, regionun yeni güc mərkəzi kimi qəbul olunan yeni Azərbaycan reallığında qeyd edilməsidir. Təbii ki, dövlət müstəqilliyimiz kimi, milli mətbuatımız da bu günə heç də asanlıqla gəlib çıxmayıb. Azərbaycan mətbuatı əsryarımlıq dövr ərzində çətin və şərəfli inkişaf yolu keçib.

Azərbaycan mətbuatı yenilənir, mediamız dünyaya uyğunlaşmaqdadır. Azad mediamız cəmiyyətin güzgüsü funksiyasını uğurla yerinə yetirir. 1875 - ci il 22 iyul tarixindən 1877-ci ilin 29 sentyabr tarixinə qədər "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Azərbaycan mətbuatının banisi görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında yeni səhifə açıldı. Azərbaycan mətbuatının ilk müjdəçisi "Əkinçi"  çox böyük irəliləyişlərə səbəb oldu. XIX əsrin sonlarında "Ziya" (1879), "Kəşkül" (1880), "Kaspi" (1880-1890) adlı qəzetlər də nəşr olunmağa başladı. Əkinçinin dalğası ilə XX əsrin əvvəllərində C.Məmmədquluzadə, M.Şaxtaxtınski, Ü.Hacıbəyov, S.Hüseyn, Ö.F.Nemanzadə və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə apardılar. "Şərqi-rus" (1903), "Həyat" (1905), "Açıq söz" (1915), "Azərbaycan" (1918) kimi demokratik ruhlu, milli qayəli qəzetlər yarandı. Azərbaycanın ictimai həyatının ən mühüm amillərindən biri mətbuatın meydana çıxması oldu. 150 illik tarixə malik olmaq media cəmiyyətimizin də qürur duyacağı bir tarixdir.

Milli mətbuat yarandığı gündən mənəvi dəyərlərin daşıyıcısı, fəal tətqiqatçısı və qoruyucusu kimi məsul missiyanı yerinə yetirib. Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası daima həqiqət carçısı olub. Xalqın maariflənməsində, milli bəşəri dəyərlərin qorunmasında mükəmməl rol oynayıb. Belə bir yol keçən Azərbaycan mətbuatı indi özünün yüksəliş mərhələsinə qədəm qoyub. Müstəqil dövlətimiz möhkəmləndikcə azad söz və mətbuat sahəsində mühüm addımlar atılır. Bu gün Azərbaycan dünyada sözə, insan hüquqlarına hörmət edən ölkə kimi tanınır. Vaxtilə Ulu Öndər Heydər Əliyev əminliklə deyirdi: "Bir dövləti qorumaq üçün 100 qılınc kəsəri lazımdırsa, bir söz kəsəri daha təsirlidir". Bu gün bu kəsər çox mətin, cəsarətli, iti qələmi olan Azərbaycan yanğılı jurnalistlərindədir. Bunun ən bariz nümunəsini həm Birinci Qarabağ müharibəsində, həm də 44 günlük vətən müharəbəsində ölümün gözünə dik baxan jurnalistlərdə gördük. Azərbaycan mətbuatı, jurnalistlərimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbənin carçılarıdır. Vətən müharibəsində və postmüharibə dövründə milli mətbuatın göstərdiyi birlik, vətənpərvərlik və peşəkarlıq bir daha sübut etdi ki, Azərbaycan mediası bu gün təkcə məlumat daşıyıcısı deyil, həm də milli iradənin, ideoloji gücün və ictimai

> *Mətbuat cəmiyyətin aynası, gələcəyin bələdçisidir*

həmrəyliyin dayağıdır. Qırx dörd günlük Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə Azərbaycan mətbuatı sözün əsl mənasında müsəlləh əsgər kimi dövlətin, ordunun və Ali Baş Komandanın yanında dayandı. Hərbi-siyasi sahədə əldə edilən uğurlar ideoloji sahədə də medianın fəaliyyəti ilə ən yüksək səviyyəyə çatdırıldı. Mətbuat-hakimiyyət münasibətlərində milli maraqlara əsaslanan qarşılıqlı inam və etimad formalaşdı. Bu birlik və həmrəylik nəticəsində Azərbaycan mətbuatı xalqımızın operativ şəkildə doğru informasiyaya çıxışını təmin etdi. Nəticədə feyk məlumatların informasiya məkanımızda yayılmasının qarşısı alındı.

Azərbaycan milli mətbuatının 150 illik tarixi sadəcə bir peşə sahəsinin inkişaf salnaməsi deyil, həm də xalqımızın maariflənmə, milli özünüdərk və dövlət quruculuğu yolunda keçdiyi böyük tarixi yolun göstəricisidir. Bu yol müstəqil, güclü Azərbaycanın informasiya mühitində uğurla davam etdirilir. Müstəqilliyimizin bərpasından sonra ölkəmizdə mətbuatın inkişafı ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət yalnız mətbuata qayğı göstərmir, həm də media ilə fəal əməkdaşlıq edirdi. Onun bütün səfərlərinə, görüşlərinə müxtəlif mətbuat nümayəndələri dəvət olunurdu. Heydər Əliyev hakimiyyətdə olduğu illərdə jurnalistlərlə hər il geniş tərkibdə görüşlər keçirirdi. Bununla da mətbuatın dövlətçilik və cəmiyyət üçün əhəmiyyəti xüsusi şəkildə vurğulanırdı. Eyni zamanda, Heydər Əliyevin hakimiyyəti dövründə mətbuatın davamlı inkişafı üçün hüquqi baza yaradılmasına xüsusi diqqət yetirilirdi. 1995-ci ildə Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan ilk Milli Konstitusiyada mətbuata xüsusi yer ayrıldı: "Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir".

Azad mətbuatın inkişafını demokratik cəmiyyətin əsası kimi görən Prezident Heydər Əliyev 1998-ci ildə "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu Fərman ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə hesab olunur. Həmin Fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi. Üstəlik, "Hərbi senzura yaradılması haqqında" 1992-ci il 16 aprel tarixli Fərman və "İnformasiya yayımı üzərində nəzarət haqqında" 1993-cü il 15 aprel tarixli Sərəncam ləğv edildi. Bununla da azad sözün və demokratik medianın inkişaf yolundakı bütün əngəllər aradan qaldırıldı. 1999-cu ildə qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni Qanun mətbuat sahəsində demokratik prinsiplərin daha da möhkəmlənməsinə xidmət etdi. Bu sənəd bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına və yeni mətbuat orqanlarının daha asan qeydiyyatına imkan yaratdı. Demokratik və sivil dövlət quruculuğuna sadiqliyini əyani şəkildə sübut edən Azərbaycan Prezidenti İlham Əliyevin mediaya xüsusi yanaşması birmənalı olub. Onun həyata keçirdiyi siyasət birbaşa müstəqil mətbuatın formalaşmasına və inkişafına xidmət edir. Azərbaycan hökuməti söz və mətbuat azadlığı, kütləvi informasiya vasitələrinin inkişafı üçün bütün zəruri addımları atıb və bunu uğurla davam etdirir.

Dəyişən zaman və texnoloji mühit digər sahələrdə olduğu kimi, mətbuat sahəsində də islahatları zəruri edirdi. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı bu baxımdan çox əhəmiyyətli oldu. Bu Fərman əsasında Medianın İnkişafı Agentliyi (MEDİA) publik hüquqi şəxs kimi yaradıldı. MEDİA müasir dövrün çağırışlarına uyğun şəkildə mətbuat sahəsində çevik və effektiv fəaliyyət göstərməyə başladı. Bununla yanaşı, sonrakı dövrdə "Media haqqında" yeni Qanun qəbul edildi. Bu Qanun müasir tələbləri və beynəlxalq hüquqi standartları nəzərə almaqla hazırlandı və milli mətbuatın davamlı inkişafını təmin etmək məqsədi daşıyır. MEDİA qısa müddətdə ölkə mətbuatında islahatların dərinləşdirilməsi istiqamətində bir sıra uğurlara imza atdı. Medianın institusional formada gücləndirilməsi, jurnalistlərin peşə vərdişlərinin təkmilləşdirilməsi, maliyyə dəstəyinin şaxələndirilməsi bu fəaliyyətin əsas istiqamətləri oldu. Mətbuata göstərilən bu diqqət və qayğı cavabsız qalmadı. Məhz bu yüksək dəstəyin nəticəsidir ki, Prezident İlham Əliyev üç dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Prezident İlham Əliyevin uzaqgörən və praqmatik liderliyi sayəsində Azərbaycan təkcə enerji və nəqliyyat sahəsində deyil, eyni zamanda, informasiya, rəqəmsal texnologiyalar və media təhlükəsizliyi istiqamətində də beynəlxalq səviyyədə etibarlı tərəfdaşa çevrilib. Məhz dövlətimizin başçısının iradəsi və siyasi qətiyyəti nəticəsində son illər informasiya təhlükəsizliyinin təmin olunması, milli media sisteminin inkişafı və rəqəmsal suverenliyin qorunması istiqamətində mühüm islahatlar həyata keçirilib. Ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması, mədəni zənginliyimizin tanınıdılması və təbliği Azərbaycan reallıqlarının, respublikamızın həyatında baş verən yeniliklərin operativ, obyektiv və peşəkar şəkildə yerli və beynəlxalq ictimaiyyətə çatdırılması böyük peşəkarlıq tələb edir və mətbuat işçilərimiz bu işin öhdəsindən layiqincə gəlirlər. Kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə Azərbaycan mətbuatının modernləşmə və qabaqcıl texnologiyaların geniş şəkildə tətbiqi ilə beynəlxalq informasiya məkanında da öz layiqli yerini tutması qürurvericidir. Bütün bunlar, həmçinin, kommunikasiya texnologiyalarının sürətli inkişafı və onların milli mətbuatımıza tətbiqi bu sahənin moderinləşməsinə, yüksəlişinə stimul verib. Prezident İlham Əliyevın qayğısı sayəsində istər yazılı, istərsə də elektron kütləvi informasiya vasitələri özünün yüksəliş mərhələsini yaşayır. Və elə bu templə də cəmiyyət həyatına nüfuz edib ümumi inkişafa, tərəqqiyə öz layiqli töhfələrini verir.

Qlobal çağırışlara cavab olaraq Azərbaycanın informasiya məkanının süni intellekt və rəqəmsal texnologiyaların yeni imkanları ilə təchiz edilməsi, bu sahədə strateji baxışın ortaya qoyulması Prezident İlham Əliyevin ölkəmizin gələcəyinə hesablanmış inkişaf kursunun tərkib hissəsidir. İşğaldan azad edilmiş ərazilərdə əhəmiyyətli beynəlxalq tədbirlər təşkil olunur. Tarixi Azərbaycan şəhəri Şuşa kimi Xankəndi də qlobal media məsələlərinin müzakirə olunduğu məkana çevrilib və eyni zamanda, Xankəndi başda olmaqla bütövlükdə Qarabağın zəngin mədəni irsinin dünyaya təqdimatıdır. Bu torpaqlar artıq təkcə tarixi-mədəni irsimizin deyil, eyni zamanda, beynəlxalq intellektual əməkdaşlığın, qlobal dialoqun, texnoloji və informasiya mübadiləsinin də mərkəzinə çevrilir. Bu, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasından sonra yeni inkişaf mərhələsinə qədəm qoymasının ən aydın göstəricisidir. Forum informasiya dayanıqlılığı, media savadlılığı, dezinformasiyaya qarşı mübarizə və süni intellektin mediada tətbiqi kimi mühüm məsələlərin müzakirəsi baxımından beynəlxalq ekspertlər üçün əvəzsiz bir platformadır. Əldə olunan uğurlar göstərir ki, milli mətbuatımız yalnız keçmişin mirası deyil, həm də gələcəyə aparan güclü bir vasitədir.

**Mustafa KAMAL,**
**"Respublika".**